Rəylər. KİV və ədəbiyyat

Balaların sevimlisi

Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "Şam" ədəbi məclisinin təşkilatçılığı ilə şairə Xanımana Əlibəyli ilə görüş keçirilib. Tədbiri açan "Şam" ədəbi məclisinin sədri Simuzər Nüsrətbəyli 83 yaşlı şairənin Azərbaycan ədəbiyyatı tarixində oynadığı roldan danışdı: "Uşaq yaşlarından biz Xanımana Əlibəylinin şerləri ilə tərbiyələnmişik. "Məktəb yolu"ndan tutmuş bütün şerləri hələ də bizim nəsilin nümayəndələrinin yaddaşında yaşayır. Bu gün də hiss olunur ki, müasir gənciyimizi lələyaqətə, vətənə məhəbbətə, saflığa səsləmək üçün onun şerlərinə ehtiyac var. Bura toplaşanlar arasında isə şairənin çağdaş oxucuları daha çoxdur".

Sonra S.Nüsrətbəyli səhnəyə küçük yaşlı uşaqları dəvət etdi. Onlar Xanımana Əlibəylinin bir neçə şerini söylədilər.

Yazıçı Elmira Zamanova "gənciyimizin üstünə xarici dünyanın yeridiyi bir vaxtda bu şerlərin təsiri böyük ola bilər. Xanımana Əlibəyliyə olan hörmətimiz özümüzə olan hörmətdir" söylədi. Şair Oqtay Rza isə şairənin təkcə uşaq şerləri yazmadığını, bir çox dərdlərimizi əks etdirən, həmçinin müharibə illərində hələk olan həmyerlilərimizə hər bəyt etdiyi şerlər müellifi olduğunu bildirdi və şairə üçün yazdığı şerini səsləndirdi.

Tədbirdəki çıxışçılar arasında Xəlil Rza Ulutürkün xanımı Firəngiz Ulutürk də vardı. O, "Azərbaycan xalqının və uşaqlarının böyük şairi" adlandırdığı şairənin yaradıcılığında hər zaman Azərbaycan mentalitetinə sadiq qaldığını vurğuladı.

Görüşdə qəribə bir çıxış hamının təəccübünə səbəb oldu. Belə ki, Suraxanı rayon Qadın və İnkişaf Mərkəzinin sədri Şövkət Xanməmmədova "öz uşaqlıq illərimə qayıtmaq istəyirəm", — deyib Xanımana Əlibəylinin şerini və şerinə bəstələnmiş mahnını uşaq intonasiyası və səsi ilə ifa etdi. Şer oxuyanlar arasında şairələr Gülemayi və Əzizə da vardı. Gülemayi Xanımana Əlibəyliyə, şairə Əzizə isə öz anasına həsr etdiyi, lakin şairəyə ünvanladığı "Ana" şerini oxudu və onu da qeyd etdi ki, Azərbaycanda uşaq şeri yazanlara qiymət verilmir, halbuki İsveçrədə onlara heykəl qoyulur.

"Göyərçin" jurnalının redaktoru Rafiq Yusifoğlu çıxışına bu fikrə münasibətini bildirməklə başladı: "İsveçrədə bank burda olsaydı, yəqin ki, biz də heykəl qoya bilərdik". O, şairəyə ünvanladığı xoş sözlərdən əlavə, Xanımana Əlibəylinin şerləri haqqında oçerk salınmış və yeni nəşr olunmuş "Uşaq ədəbiyyatı" dərsliyini də hədiyyə gətirmişdi.

C.Nərgiz

Uşaqlara məhəbbətlə

Uşaq ədəbiyyatının dünya miqyasındakı əhəmiyyətindən danışmaq həmişə nəinki lazımdır, həm də zəruridir. Yetişən gənc nəslin — uşaqların təfəkkürünün dərinliyi, dünyagörüşünün formalaşması, balaca balaların milli dəyərlərlə böyüməsi və geniş erudisiyası bu sahədə çalışan yazıçıların qələminin zənginliyindən asılıdır.

Dağıstanın görkəmli şairi Rəsul Həmzətovun vaxtilə eşitdiyim bir çıxışı həmişə yadımdadır: "Biz gəzməyə çıxanda uşaqları çiynimizə qaldırırıq ki, onlar bizdən uzaqları görsünlər".

Şairin bu hikməti fikri uşaq ədəbiyyatının qarşısında duran başlıca vəzifəni yerinə yetirmək — uşağa çox, bacardıqca çox bilik, məlumat, bilgi vermək zəruriyyətindən doğur.

Çağdaş dünyada sosial vəziyyəti həqiqətən ağır olan baxımsız uşaqlar hələ də az deyil. Hər bir dövlətin vəzifəsi bu vacib problemi diqqət mərkəzində saxlamaq, ona lazımi qayğını göstərməkdir.

Ölkəmizdə uşaq ədəbiyyatının inkişaf problemi ilə neçə şerlər kitabı mektəblilərin sevə-seva oxuduqları kitablardandır. Onun, həqiqətən, dəyərli şerləri kitabları nəşr olunmuşdur. Ancaq mehz "Uşaq ədəbiyyatı" kitabında Rafiq Yusifoğlu özünü uşaq ədəbiyyatının kamil bilicisi kimi tam aydın mövqeyi ilə təsdiq etmişdir.

"Uşaq ədəbiyyatı" kitabı dərs vəsaitidir. Onun əsas ideyası bütövlükdə Azərbaycan, eləcə də dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələri haqqında yığcam məqalələr vasitəsi ilə onları tanıtı tanıtmaq, habelə müəlliflərin əsərlərindən ən maraqlı nümunələri oxuculara çatdırmaqdır.

Kitab tərbiyəçilər, müəlimlər, tələbələr, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Onu da qeyd edək ki, belə lazımlı kitabın 500 nüsxəyə nəşr olunması, tirajın belə az olması ona gətirib çıxarıb ki, belə qiymətli mənbə çoxsaylı oxucu kütləsinə gedib çıxmır.

Rafiq Yusifoğlunun Azərbaycan yazıçıları haqqında məlumatları üslubunun yüngüllüyünə, bəkinliyinə, aydınlığına, dəqiqliyinə və emosionallığına görə seçilir. O, hər yazıçının öz yazı tərzi, öz üslubu olduğu kimi, məqalələri də bu baxımdan tərkərsızdır, özünəməxsusdur. Mənca, bütün bu məziyyətlər müəllifin oxucu qarşısında duyduğu məsuliyyət hissindən irəli gəlir.

Kitabda müəlliflərin yazdığı sadə, aydın, ağıllı giriş sözünün də öz çəkisi var və xüsusi qeyd olunmağa layiqdir.

Bütün kitabı ümumiləşdirmiş olsaq, onu xüsusi qeyd etmək lazımdır ki, kitabın hər satrında müəllifin mövzuya aydın mövqeyi və hədsiz məhəbbəti duyulur. Görünür, Rafiq Yusifoğlunu uşaq ədəbiyyatının problemləri daim qayğılandırır.

Sonda mən müəllifi, eləcə də Azərbaycan uşaq yazıçılarının yaşlı və gənc nəslini belə dəyərli kitabın nəşri münasibətilə təbrik edirəm.

Əzizə TÜRKAN

Susmaz duyğuların sönməyən ulduzları

Hər bir sənətkarın və ya ədəbi-tarixi dövrün tam dərki üçün onun yaratdığı, qoyub getdiyi zəngin irsin nümunələri ilk baxışda kiçik, ötəri görünən fakt və incəliklərinə qədər öyrənilməlidir. Belə olduqda alınan təəssürat — əmi qənaət daqiq, obyektiv və tutumlu olur. Çünki ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi (o cümlədən tarix elmi) faktlardan, sübut-dəlillərin tapılıb üzə çıxarılmasından, onların şərhindən başlayır. Filologiya elmləri namizədi, tədqiqatçı, mətnşünas alim, ədəbiyyat tariximizi yorulmaz araşdırıcılığı ilə yeni-yeni fakt,elmi fikir və mülahizələrlə zənginləşdirən Asif Rüstəmli bu həqiqətə dərindən inandığı üçündür ki, özünün tədqiqatçılıq fəaliyyətində ilk növbədə ədəbi-tarixi fakt və dəlillərə əsaslanmağı üstün tutur. Bunu onun "Elm" nəşriyyatı tərəfindən çapdan buraxılan "Susmaz duyğuların səltənətində" (Bakı, 2002) adlı kitabında da görürük.

Oxucuların mühakiməsinə verilən nəfis tərtibatlı, zövqlə işlənmiş bu kitabda alimin Cəfər Cabbarlı irsinin tədqiqi və nəşri istiqamətində vətəndaş narahatlığı, tədqiqatçılıq məsuliyyəti ilə apardığı araşdırmalarının məhsulu olan məqalələri toplanıb. C.Cabbarlının şəxsiyyəti və yaradıcılığı haqda ədibin sağlığından ta bu günədək kifayət qədər yazılmış olsa da, A.Rüstəmlinin araşdırmalarından məlum olur ki, hələ nəinki təkcə C.Cabbarlı, hətta bütövlükdə ədəbiyyat tariximizə öyrənilməmiş, səmərəli və məqsədyönlü tədqiqatlara ehtiyacı olan məsələlər çoxdur. Sadəcə olaraq İşə ürəklə, tədqiqatçı alim şəriştəsi və vətəndaş məsuliyyəti ilə girişmək lazımdır. Bəri başdan deyim ki, Asif Rüstəmlidə tələb olunan bütün bu keyfiyyətlər var. Odur ki, o, ümumən elmi fəaliyyətində olduğu kimi, C.Cabbarlı irsinin öyrənilməsinə də birinci növbədə arxivlərdən, fakt və sənədlərin öyrənilməsindən başlayır. Əsərə məzmunlu ön söz yazan professor Nizaməddin Şəmsizadənin haqlı qənaəti da beləcə bir, bu kitab indiyədək ədib hayat və yaradıcılığına həsr olunmuş ən fundamental tədqiqatlardandır: "C.Cabbarlının yaradıcılığı məlum faktlar dairəsində təhlil olunur. A.Rüstəmlinin əsəri C.Cabbarlıya münasibətin yeniliyi ilə səciyələnir. Müəllif C.Cabbarlını təhlil yox, tədqiq edir... Bu kitaba daxil olan məqalənin hər birində C.Cabbarlı ömrünün, sənətkar taleyinin yeni bir sirri açılır. A.Rüstəmli arxivlərdən inad və məhəbbətlə qətrə-qətrə topladığı faktlardan hökmranı C.Cabbarlı olan susmaz duyğular səltənətinin nəhəng və sirli binasını qurmağa nail olur".

Kitabda toplanmış məqalələrin təkcə başlıqlarına ötəri belə nəzər salmaqla A.Rüstəmlinin alim-vətəndaş məsuliyyəti ilə apardığı araşdırmalardan cabbarlışünaslıq, bütövlükdə ədəbiyyatşünaslığımız üçün nə qədər qiymətli töhfələr verdiyini təsəvvür etmək mümkündür; "Cabbarlının ilk şerləri", "Cabbarlı və Nuru Paşa", "Səfa"nın libretto müəllifi kimdir?", "C.Cabbarlının nəməlum hekayəsi", "Kölgədə qalmış şer", "C.Cabbarlının nəməlum "Dilənçi"si", "İkinci ömür" və s. və i. a. Bütün bu araşdırmaların hər birində C.Cabbarlı şəxsiyyətinin, onun ədəbi irsinin indiyədək qaranlıq qalmış müəyyən bir güşəsinə işıq salınır, elmi ədəbiyyatdakı mövcud dolaşıqlığa aydınlıq gətirilir, dəqiqləşdirmələr apanılır. Müəllif kitablardan ibarət "Ədirne fəthi" (Bakı, Elm, 1996) adlı kitabı çapa hazırlamışdım..."

İndi bu tapıntıların yuxarıda göstərilən rəqəmləri əşmasını hemin kitabdan sonra tədqiqatçı C.Cabbarlı irsinə dair hazırladığı yeni əsərlərlə zəngin olan "Mənim tanımı — gözəllik" (Bakı, 2000) kitabından əlavə, ədibin çapını gözləyən "Kazım bəy" romanı, bir çox məqalə, məktub və əsərləri də göstərir. Araşdırıcı C.Cabbarlının "Poçtov"dan başlanan yaradıcılığ yoluna yönəltdiyi işıqda öxucunu ədibin müəllimləri Süleyman Sani Axundov, Abdulla Şaiq, Rəhim bəy Şıxlinski, Əliməmməd Mustafayev, müəsirləri Haşım bəy Vəzirov, Əmin Abid, Əli Nazim, Məmməd Arif Dadaşzadə və başqaları ilə də tanış edir.

Asif Rüstəmli ədəbi-tarixi faktları sadəcə olaraq üze çıxarıb nəşrə hazırlamır. Onları elmi təhlil süzgəcindən keçirib özünün fikir, qənaət və hökümlərini söyləyir. Bu məqalə və müsahibələrdə elm zəkası, tədqiqatçılıq səriştəsi və obyektivliyi ilə yanaşı, vətəndaşlıq duyğusundan alovlanan publisistik bir ruh da var. Odur ki, elmi mantiqlə birləşən publisistika Cəfər Cabbarlı irsi, şəxsiyyəti və mühiti haqda Asif Rüstəmlinin gəldiyi qənaətlərin, fikir və mülahizələrin oxucuya daha aydın, təsirli çatmasını təmin edir.

Alxan BAYRAMOĞLU

«Dədə Qorqud» dərgiləri

AMEA Dədə Qorqud adına "Folklor elmi-tədqiqat İnstitutunun rüblük dərgisi olan "Dədə Qorqud" elmi-ədəbi toplusu yarandığı gündən mötəbər elmi jurnal kimi tanınmağa başlamışdır. Jurnalın baş redaktoru AMEA-nın müxbir üzvü Tofiq Hacıyevdir. İnstitut Elmi Şurasının qərarı ilə ərsəyə gələn toplu, görkəmli alimlərin təmsil olunduğu redaksiya heyətinin nəzəri altda çıxır; sı yollarla getmədi, hansına daha çox meyl göstərmək, hansına üstünlük vermək faydalıdır? Rus realizminəmi, türk romantizminəmi, Avropanın Azərbaycanda sürətlə yayılmağa və məşhurlaşmağa başlayan onlarla dühalarınamı? Necə, nə şəkildə?"

Deyəsən axı, tarix təkrar olunur. Eyni suallar, demək olar ki, heç dəyişilmədən XXI əsrin əvvəllərində də ucadan səslənir. Əlbəttə, keçən əsrin əvvəllərin-

Nə var, nə yox

Ədəbiyyatda yenilik duymaq sözündən başlanır, sonu o yeniliyin etirafıdır. Diqqət yetirsəniz, elə ədəbi mübahisələrin bir çoxu bu sözün ətrafında gedib. "Yenilik" sözü müxtəlif ədəbi zövqlərin təbirinə yozulub:

Bir qısm bu yeniliyi köhnə havalarda ("ənənəvi" poeziyada, nəsrdə) təze söz demək bacarğında arayıb.

Bir qısm sirf sosioloji cəhəti əsas götürüb; əgər şair və nəsir dövrün, zamanın ruhunu tuta bilirsə, demali, o yenilikçidir, fikri səslənib.

Yeniliyi sirf formada axtaranlar da olub, onlar ənənəvi forma və qəlıbların dağıdılıb yeni, modern formalarla əvəz olunmasını əsas götürüblər.

Bir qısm isə yeniliyin kökünü özümüzdə axtarmayıb — "gəlin, Avropa modern ədəbiyyatını buralara tətbiq edək" fikri ədəbi gündəmə gətirilib.

Demali, ədəbi zövqlərin müxtəlifliyi "ədəbiyyat nece olmalıdır" sualının cavabını da bir-birindən fərqli şəkildə ortaya qoyub.

Götürek keçən əsrin əvvəllərini. Akademik Kamal Talıbzadə "Abbas Səhhət" monoqrafiyasında yazır: "Əsr yeni, əsrin özü ilə gətirdiyi hadisələr yeni idi. Ədəbiyyatın vəzifələri də müəyyən edilməli idi. Köhnəni eynilə davam etdirmək mümkün deyildi. Elə isə yeni ədəbiyyat nece olmalıdır? Hansı yaradıcılıq metodları müasir tələblərə cavab vere biler, ədəbi ənənələrdən nece istifadə edilməlidir? Nədən imtina etmək, nayi meniməsəyib irəli aparmaq? Dəxilde hansi ədəbi qüvvələre istinad etmək, hansı ədəbi cərəyan ve istiqamətlere söykənmək lazımdır? Xarici ədəbiyyatları da öyrənmek yeni ədəbi mərhələnin qarşısında duran mühüm vəzifələrden biri idi. Rus, həmçinin Şərq ve Avropa ədəbiyyatları müasir yazıçıları çox cəlb edirdi. Bu ədəbi öyrənmə, təsirlənmə hansı yollarla getmeli, hansına daha çox meyl göstermek, hansına üstünlük vermek faydalıdır? Rus realizminəmi, türk romantizminəmi, Avropanın Azərbaycanda sürətlə yayılmağa ve meşhurlaşmağa başlayan onlarla dühalarınamı? Necə, nə şəkilde?"

Deyəsən axı, tarix təkrar olunur. Eyni suallar, demək olar ki, heç dəyişilmədən XXI əsrin əvvəllərinde da ucadan seslenir. Elbette, keçen esrin evvellerin-

Gəlin yeniliyi duyaq...

də ədəbiyyatı irəli aparmağın ən optimal qayəsini təşkil eden bu cür suallarn bir çoxu az sonra ədəbi praktikada özünü doğrultmağa başladı. Bu baxımdan Abbas Səhhətin yaradıcılığının ilk mərhələsi ilə sonraki mərhələsini müqayisə etmək kifayətdir. Abbas Səhhət Alfred de Müsse, Sulli Prudom, Jan Roma kimi fransız romantiklərindən təsirlandi, rus realizmindən, türk romantizmindən öyrəndi, lakin "yeni səpkide" — "üsuli-cədid" üzrə yazdığı şerlər milli şer olaraq qaldı.

XXI əsrin əvvəllərinde de bizim bir çox yazarlarımız dəyişilən dövrün ritmine uyğun olaraq "yeni ədəbiyyat" yaradırlar. Onlar Abbas Səhhətden daha celd ve sürətli, daha yeni ve sürekli halda Azərbaycan ədəbiyyatına Avropa havası getirmeye can atır, dünya ədəbi prosesinde baş veren yeniliklerl Azərbaycan ədəbiyyatına tətbiq etmeye çalışırlar. Artıq "postmodernizm" sözbəsi ədəbi leksikonda çox işlek sözlerden birine çevrilib. Neyin bahasına olursa-olsun, bu ədəbi cərəyanın Azərbaycan varlığı ortaya qoyulur. Bir tərəfden, Qərb sənetkarlarının hemin ruhda yazdığı əserlerden nümuneler tercüme edilir, Azərbaycan oxucusuna çatdırılır — bu, çox gözel ve faydalı işdir. Qoy Azərbaycan oxucusu dünyaya, gerçekliye tamam yeni bir baxış bucağını ifade eden orijinal əserlerle tanış olsun. Ancaq postmodernizmin "Azərbaycan varlığı" (yeni bizim yazarlarımızın əserleri) hele ki, yamsılamadan ve taqlidden başqa bir şey deyil.

Heç şübhesiz, ədəbi inkişaf özü Azərbaycan ədəbiyyatında bu cür yenilikçi temayülü de tam formalaşdıracaq — eger yaşam hüququ qazanacaqsa. Ancaq bu yeniliyin prosesi çorba sürətlendirmeye dayanmır.

Əslinde, dünyanı, gerçekliyi, insan əlemini yeni bedii qavrayışla əks etdiren əserler 60-cı illerden başlayaraq Azərbaycan ədəbiyyatında yaranmağa başladı. O zaman bu prosesin sürətlendirilmesi yolu, lengidilmesi baş verirdi, ancaq köçmeden Əli Kərimin, İsa İsmayılzadənin, Elekber Salahzadənin, Vaqif Səmədoğlunun "yeni səpgide" şerleri etiraf olundu. Ve bu əserler Azərbaycan ədəbiyyatında Azərbaycan modernistlerinin bayrağını dalğalandırdı. Bu gün o bayraq Adil Mirseyidin, Zahid Sarıtorpağın, Xanəmirin, Rasim Qaracanın, Selim Babullaoğlunun, İbrahim İbrahimlinin, Zahir Əzəmətin, Aqşinin, Şərif Ağayarın ellerinde dalğalanır...

uğur olsun size, qardaşlar!

Biz heç de köhnelik esiri deyilik, artıq yıpranmış, ömrünü keçirmiş ve sabaha ümidi qalmayan ənənelerden yapışıb durmuruq. Ancaq ele ənənəler var ki, onlar hele yaşayır ve yaşamalıdır. Gelin, onlara da toxunmayaq!

Köşe yazılarında həmişə "Yeni Azərbaycan", "Ədalət", "525-ci qəzet"ə müraciet etmişik. Bu defe ənənəni pozub "Azərbaycan" ve "Ulduz" jurnallarına müraciet edek.

"Azərbaycan" jurnalı 1-ci sayından başlayaraq "Ədəbi gənclik: problemler, mülahizəler" sorğusunu tedqiq edir. Bu sorğuda müxtelif ədəbi nəsillerin nümayendeleri iştirak edir. Sorğuda keçen esrin 90-cı illerinde ədəbiyyata gelmiş yeni neslin yaradıcılığı, bu mövzu ile bağlı qarşıya çıxan problemler müzakirə mövzusuna çevrilir. Ele düşünülmesin ki, tedqim olunan fikir ve mülahizeler eyni tiplidir, yeni mövqeyi ifade edir. Sorğudan esas məqsəd ədəbi gencliye münasibetde fərqli fikirleri ortaya qoymaqdır. Hele ki, bunu emel olunur.

"Azərbaycan" ve "Ulduz" jurnallarında (N1,2,3) genc şairlerden Metləb Ağanın, İlham İnamın, Mina Reşidin, Rafiq Hümbetin, Elnur Astanbeylinin, Sedaqet Eliqzinin, İlqar Fəhminin, Sehər Gecəqözlünün, Nərinqülün, Elsever Mənsimin, Selim Babullaoğlunun, Etimad Başqeçidin, İslamın şerleri çap olunub.

Bu şerler barede çox söz demek olar. Deye bilerik ki, bir-iki müellif istisna olunmaqla eksəriyyetinin şerleri barede yenilik tezahürü kimi söz açmaq çetindir. Nərinqülün şerleri bu sırada xüsusile seçilir; eşyalara, hadislere, içindeki hisslere, duyğulara teze poetik mənalar bexş etmekle (məs: Külekler ölüm qoxulu kəpənəklerdir. Serhedlerde fəsiller deyişilir, zaman yerimir. Serhedler quşların intihar yeridir ve s.) Elnur Astanbeylinin, Etimad Başqeçidin, Rafiq Hümbetin şerlerinde isə xalq şeri ənənələri yeni bedii düşünce işiğinde nəzərə çarpır. Azərbaycan şairlerinin artıq yonub elden saldıqları qoşma bu şairlerin İsanında özünə yeni şəyam hüququ qazandırır. Demali, qınından çıxıb qınını bəyənməyenlerin eksinə, qoşmanın, gəraylının süqutundan yox, yeni həyatından söz açmaq lazım gelir.

"Ulduz" jurnalında Selim Babullaoğlunun da şerleri çap olunub. Fikrat Qoca onun şerler silsiləsinə səmimi bir söz yazıb: Zahirən qınq-qınq nəsr parçaların xatırladır onun şeri, hardasa oxucu bu şerleri qavramaqda çetinlik çekəcəkdir. Siz onun şerlerinde ənənəvi şera məxsus əsrler boyu formalaşmış, qəlıblaşmış ölçüleri gəre bilmezsiniz. Amma bu şerlerin ölçüsü da, bedii təsvir imkanları da öz içindedir.

"Ulduz" jurnalında şair Bilal Alarlının "Modernistler ve abstraktlar" adlı maraqlı bir məqalesi çap olunub. O, öz ədəbi yaşıdlarının yazılarından söz açır. Hiss olunur ki, tənqidi təfəkküre malikdir. Məqalanın bir yaxşı cəhəti de odur ki, Bilal Alarlı təhlil ve tənqid etdiyi şer nümunelerine sırf İnkar mövqeyinden yanaşmır, sadece olaraq, hemin şerler etrafında olan bəlaqet dumanını dağıtmaq istəyir.

Yeni gelmişken, qeyd edim ki, bu gün tənqid naminə (kimise qaralamaq, sancmaq) "tənqidi" fikir söylemek azan da debe çevrilib. Məğzi ve mahiyyəti haqsız iradlardan söyüş ve tehqirden hörülen belə "tənqidler" ədəbi mühitde sesi zəif eşidilen ve özü de kölge kimi görünenleri tez bir zamanda "məşhurlaşdırır". Özü de bu "tənqidlere" en çox maruz qalan da ele tənqidçilerin özleridir — Tehran Əlişanoğlu, Vaqif Yusifli, Nizami Cəfərov, Əsəd Cahanqir...

Mənce, Bilal Alarlının məqalesi öz etik səviyyəsine göre hemin "tənqidi" yazılara örnek olmalıdır.

Vaqif YUSİFLİ

Redaksiyadan: *Aprelin 20-də tanınmış tənqidçi, "Azərbaycan" jurnalının baş redaktor müavini Vaqif Yusifilnin 55 yaşı tamam olur. Bu münasibətlə Vaqif müellimi ürekden təbrik edirik!*